AZƏRBAYCAN RESPUBLİKASI AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

HTA
HÜQUQİ TƏHLİL VƏ ARAŞDIRMALAR İCTİMAİ BİRLİYİ



# "İNSAN ALVERİNİN QURBANI OLMAYIN!"



AZƏRBAYCAN RESPUBLİKASI AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

HÜQUQİ TƏHLİL VƏ ARAŞDIRMALAR İCTİMAİ BİRLİYİ

# "İNSAN ALVERİNİN QURBANI OLMAYIN!"

BAKI – 2023

# “İnsan alverinin qurbanı olmayın!”

Hamımız insan alverinə qarşı olmalıyıq!

İnsan alveri cinayəti şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətdir!

Uşaqlar və onların ailələri tez-tez təhsil, daha yaxşı məşğulluq və ya daha firavan həyat vədi ilə şirnikləndirilir. Hər vədə inanmayın!

Daha yaxşı həyat axtarışında səhvə yol verməyin! Valideynlərin səsinə qulaq asın!

# İnsan alverinin formaları

İnsan alverinin təhlükəliliyi onun müxtəlif formada həyata keçirilməsidir:

- Məcburi əmək;
- Cinsi istismar;
- Köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti;
- Şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması;
- Qanunsuz məhsul istehsalında əməyin istismarı;





- Ev təsərrüfatında ev köləliyinin tətbiqi;
- Uşaq əməyindən istifadə (maşın yuma və s. işlərə cəlb etmə);
- Dilənçilik məqsədilə insan alveri, ələlxüsus uşaqların dilənçiliyi;
- İstismar məqsədilə nikahlar;
- Surroqat (daşıyıcı) analığa məcbur etmək məqsədilə insan alveri;
- İnsan orqanlarının və toxumalarının məcburi transplantasiyası (köçürülməsi) məqsədilə insan alveri;
- Məcburi övladlığa götürmək məqsədilə insan alveri və s. formalar.

# Qurbanların tipik əlamətləri

Beynəlxalq və milli təcrübəyə əsasən tipik insan alveri qurbanlarını aşağıdakı əlamətlərdən sezmək mümkündür:

- Lazımi qaydada qidalanmamış insan təsiri bağışlayır;
- Bədənində fiziki xəsarət və qəddar davranış əlamətləri görünür;





- Göz təmasından, sosial qarşılıqlı əlaqədən və hüquq-mühafizə orqanları ilə təmasdan çəkinməsi;
- Rəsmi şəxsiyyəti təsdiq edən sənədlərin olmaması;
- Həddindən artıq uzun saatlarla işləmək;
- İş yerində yaşamaq;
- Zəif fiziki sağlamlıq;
- Cinsi yolla keçən xəstəliklərin olması;
- Ailə restoranında xidmət edən uşaqlar;
- İnsanların tək başına ictimaiyyətə çıxmasına və ya sərbəst danışması üçün icazə verməmək və s. əlamətlər.





# Risk qrupuna daxil olan şəxslər




- Baxımsız qalmış uşaqlar və yeniyetmələr;
- Məişət zorakılığına məruz qalan qadınlar;
- Ailədə iqtisadi asılılığı olan qadınlar;
- Yaxın qohum və tanışları tərəfindən aldadılan insanlar;
- Sosial vəziyyəti ağır olan boşanmış və ya dul qadınlar;
- Erkən nikahın qurbanları;
- İnternetdən nəzarətsiz istifadə edən uşaq və gənclər;
- Məişət zorakılığı qurbanları;
- Dilənçiliyə məcbur edilən uşaqlar və digər şəxslər risk qrupuna aid ola biləcək şəxslərdirlər;
- Miqrantlar insan alverinin həssas təbəqəsi kimi görünür. Belə ki, qeyri-qanuni və ya sənədsiz statusu olan şəxslər insan alverçilərinin qurbanı olmaq riski daşıyırlar.

# Ölkəmizdə və ölkəmizdən kənarda insan alverindən qorunmaq üçün sizin aşağıdakı hüquqlarınız vardır:

- Cinsi maariflənmə hüququ;
- Ədalətli şəkildə ödəniş əldə etmək;
- Ayrı-seçkiliyə məruz qalmamaq;
- Sağlam və təhlükəsiz iş qaydaları ilə təmin edilmək;
- İctimai birliklər, immiqrant və əmək hüquqlarını qoruyan təşkilat və qruplardan yardım istəmək;
- "Qaynar xətt" imkanlarından çevik istifadə etmək;
- Təhqirə yol verilən iş yerini tərk etmək;
- İşləmək, sərbəst iş yeri seçmək, ədalətli və əlverişli iş şəraitinə malik olmaq hüququ;
- İstirahət və məzuniyyət hüququ və s.

# QAYNAR XƏTT

Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinə bilavasitə tabe olan "Qaynar xətt" (tel: 152) 2007-ci ilin oktyabr




ayından fəaliyyətə başlamışdır. 152 "Qaynar xətt"i insan alveri cinayətindən zərər çəkmiş şəxslərə, insan alverinin ehtimal olunan qurbanlarına və potensial qurbanlarına, xüsusən qadın və uşaqlara yardım məqsədilə məlumat-məsləhət xidməti göstərir.

İnsan alverinin qurbanı olmamaq üçün aşağıdakıları bilməyiniz vacibdir:
Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" 28 iyun 2005-ci il tarixli Qanununa əsasən insan alverinə qarşı mübarizə ilə məşğul olan əsas dövlət orqanı Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsidir.
Beynəlxalq səviyyədə isə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) insan alveri problemi ilə məşğul olan əsas qurumdur.

Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı
Tel: (+994 12) 498 00 92
Faks: (+994 12) 493 58 72
E-mail: office@scfwca.gov.az

Veb sayt: www.scfwca.gov.az

Facebook: https://www.facebook.com/AileQadinUsaqProblemleriUzreDovletKomitesi

İnstagram: https://www.instagram.com/aileqadinusaq

Twitter: https://twitter.com/AileQadinUsaq

Sosial şəbəkələr (QR-kod):

Facebook

İnstagram

Twitter


STOP